**UOT 1(091).**
**DOI: 10.52094/3005-9941.44.2023.0186**

**Fərid Əflatun oğlu Mahmudzadə**
**Azərbaycan Milli Elmlər Akademiyası**
**Fəlsəfə və Sosiologiya İnstitutu**
**Bilik fəlsəfəsi üzrə fəlsəfə doktoru**
**E-mail: fmahmudzade@gmail.com**

# İNTERDİSİPLİNAR BİLİYİN FORMALAŞMASINDA SOSİAL-MƏDƏNİ MÜHİTİN ROLU: EPİSTEMOLOJİ TƏHLİL

**Xülasə:** Müasir mərhələdə fənlərarası yanaşma çərçivəsində elmi biliyin fəlsəfi refleksiyasına əhəmiyyət verilir. O cümlədən, fənlərarası biliyin (və ya interdissiplinar bilik) formalaşması və yeni biliyin əldə olunmasının müxtəlif aspektlərdə fəlsəfi-elmi dərki aktualdır. Məqalədə interdissiplinar biliyin formalaşmasında sosial-mədəni mühitin yeri və rolu araşdırılır.

Burada başlıca məqsəd müasir mərhələdə biliyin formaşlamasında koqnitiv faktorlarla yanaşı sosial kontekstin hansı rol oynadığının praktiki-tətbiqi aspektdə araşdırılmasından ibarətdir.

Məqalədə göstərilir ki, interdissiplinar biliyin formalaşmasına müasir baxışlarda “posthəqiqət”, “qeyri-müəyyənlik”, “hiperreallıq” və s. kimi anlayışların fonunda fəlsəfi yanaşmalar edilir. Bu əsasda fənlərarası biliyin struktur və funksional özəllikləri aydınlaşdırılır.

Fənlərarası biliyin fəlsəfi dərkində elmi rasionallıq anlayışının da yeri və roluna məqalədə baxılır. Həmin bağlılıqda postqeyri-klassik rasionallığın bir sıra xüsusiyyətləri təhlil edilir. Burada başlıca məqamlardan birinin postqeyri-klassik rasionallıqda koqnitiv və sosial-mədəni mühit aspektlərinin sıx qarşılıqlı əlaqədə ifadə edildiyindən ibarət olduğu vurğulanır.

Qarşıya qoyulan elmi araşdırma məqsədinə uyğun olaraq problemə müasir sosial-tarixi epistemologiya prizmasında fənlərarası metodologiya çərçivəsində baxılır.

Metodoloji prinsiplər kimi qeyri-xəttilik, intersubyektivlik və sinergetik sintez metodoloji prinsipləri götürülür.

Metod qismində müqayisəli təhlil və dinamik inteqrasiya seçilmişdir.

Elmi yenilik müasir mərhələdə “posthəqiqət” anlayışının qnoseoloji paradoksallığı deyil, interdissiplinar bilik nümunəsində “elmi həqiqət”in anlamının yeni mərhələyə keçidini ifadə etdiyi müddəasının irəli sürülməsi ilə bağlıdır. Bu

mənada "posthəqiqət" anlayışını şərti olaraq "neoklassik elmi həqiqət" kimi xarakterizə etmək olar.

**Açar sözlər:** postqeyri-klassik rasionallıq, fənlərarası bilik, həqiqət, fəzilət, qeyri-müəyyənlik, elmi legitimlik, hiperinam, postdoğru, hiperreallıq

## Giriş

Elmi biliyin formalaşmasının fəlsəfi dərki qədimdən filosoflar üçün aktual olmuşdur. Qədim Yunanıstanda elmi biliyi rəydən, mifik və dini təsəvvürlərdən məntiqi əsasda fərqləndirmişlər. Həmin dövrdən doksasit inamla (əksəriyyətin sübutsuz inandığı ortaq dəyərlər) məntiqi sübuta dayanan biliklər arasında fərq qoymuşlar. Bu istiqamətdə Platon və Aristotelin fikirləri indi də filosoflar üçün əhəmiyyət kəsb edir. Platon "Fedr", "Pir", "Dövlət" kimi dialoqlarında bu məsələyə müxtəlif aspektlərdə toxunmuşdur. Platona görə, "rəy" və "bilik" fərqlənir. Bilik "əbədi", "həqiqi", "özünə eyni olana" çatmaq üsuludur. Bunun son mərhələsi fəzilət "ideyası"dır. Bilik dialektik mühakimə ilə sıx bağlıdır. Bilik və mühakimə insan təfəkkürünü varlığa istiqamətləndirir. Maddi dünyaya istiqamətlənmiş mühakimə mənasızdır, çünki orada özünə eynilik yoxdur və, deməli, həqiqət yoxdur və hər şey təşəkklüdədir. Buna görə də maddi dünya üçün rəy ola bilər. Rəy bu və ya digər dərəcədə həqiqi baxış ola bilər. O halda həqiqi biliyi cəbr və fəlsəfənin ontologiya hissəsi verir. Təbiətşünaslıq, fiziki elmlər, həndəsə, cəmiyyət haqqında elmlər yalnız rəy yarada bilərlər [Platon, 1990-1994].

Deməli, hələ qədim dövrdə fəlsəfi təfəkkürdə elmi biliyə iki aspektdə baxılırdı; birincisi, həqiqi elmi bilik, ikincisi, doğru olana yaxın oxşar rəy, maddi dünyanın təşəkkülündə formalaşan fikir, mövqe. Həqiqi elmi bilik əbədilik, mütləq həqiqət olmaq, ideya aləminə birbaşa aid olan və bu mənada fəzilətin özünə eyniliyini ifadə edən mütləq ideyadır. Müxtəlif təbiətşünaslıq və ictimai elmlər isə maddi dünyanın təşəkkül kontekstində doğru olana yaxın rəy, fikir yarada bilərlər. Bununla Platon faktiki olaraq sonrakı mərhələlər üçün elmi bilik və elmi olmayan bilik fərqləndirməsi ilə bağlı koqnitiv təməl yaratmışdır. Sonrakı fəlsəfi-elmi təcrübə göstərir ki, bu nəzəri-metodoloji təməl üzərində mürəkkəb və maraqlı nəzəri konstrukt yaratmaq mümkündür.

Bütövlükdə bu məsələ "elmi bilik nədir?", "elmi bilik necə əmələ gəlir?", elmi biliklə elmi olmayan biliklər arasında hansı fərqlər vardır?" kimi suallara fəlsəfi və epistemoloji cavab axtarışları ilə sıx bağlıdır. Platon əsasən məsələyə təfəkkür və məntiq prizmasında baxırdı və sosial mühit onun dərketmə üsulunda arxa planda idi. Lakin sonralar fəlsəfədə elmi biliyin əldə olunmasında yaradıcı insanın mövcud olduğu ümumkültür mühiti və konkret olaraq onu əhatə edən sosial-mədəni şərtlərin biliyin əldə edilməsinə təsiri məsələsi aktuallaşdı. Bu aspektdə xüsusilə müasir mərhələdə (biz XX əsrin ikinci yarısından başlayaraq XXI əsrin ilk onilliklərini əhatə edən dövrü nəzərdə tuturuq) elmi biliyin fəlsəfi-epistemoloji təhlili aktuallıq

kəsb etməkdədir.

Əlbəttə, bu geniş mövzudur. Biz bu məqalədə geniş mənada elmi biliyin deyil, interdissiplinar qarşılıqlı əlaqələr nəticəsində yaranan elmi biliklərin bir sıra fəlsəfi və qnoseoloji məqamlarına nəzər salmağa çalışacağıq.

Məsələyə əsasən müasir sosial-tarixi epistemologiya prizmasında fənlərarası metodologiya çərçivəsində baxırıq. Bu zaman qeyri-xəttilik, intersubyektivlik və sinergetik sintez metodoloji prinsiplərindən yararlanırıq.

Metod olaraq isə müqayisəli təhlil və dinamik inteqrasiyanı tətbiq edirik.

## 1. Elm və sosial-mədəni mühit: qarşılıqlı təsirlərin bir sıra fəlsəfi xüsusiyyətləri

Hazırda elmin sosial-mədəni mühitlə sıx əlaqəsi ilə bağlı geniş araşdırmalar aparılır və müzakirələr təşkil edilir. Tədqiqatçılar elm-sosial mühit əlaqələrini inkar etmirlər. Lakin bu əlaqələrin konkret məzmunu və onun fəlsəfi dərki aspektində fikir müxtəlifliyi mövcuddur. Bütün bunlar artıq “sosial epistemologiya” adlanan və getdikcə genişlənən qnoseoloji istiqamət çərçivəsində aparılır. Sosial epistemologiya haqqında S.Fuller, Sh.Avin, A.Goldman, İ.T.Kasavin və digər filosoflar geniş tədqiqatlar aparmışlar. Onun bütün çalarları üzərində burada dayanmaq mümkün deyildir. Yalnız mövzu ilə bağlı bir sıra məqamlara diqqət yetirək.

Stiv Fuller keçən əsrin 80-ci illərindən elmi biliyin formalaşmasına sosial mühitin ciddi təsirlərindən bəhs edirdi. O, XXI əsrin gəlişi ilə bu məsələni daha geniş aspektdə analiz etməyə başlamışdır. Digər filosoflarla mövzunu müzakirə edən S.Fuller 2020-ci ildə dərc edilən məqaləsində yazır ki, “elm ictimai fəzilət kimi” sosial-mədəni kontekstə malikdir və o, daha çox fəzilət faktı kimi deyil, “fəzilətliyə canatma” olaraq dərk edilməlidir [Fuller, 2020, s.71]. Onun fikrincə, insanın elmi dərketmədə fəzilətliyə canatması real olaraq onun “bilik istehsalının aləti olması” ilə bağlıdır. Yəni S.Fuller hesab edir ki, laboratoriyalarda rast gəlinən texnologiyalar kimi, dərk edən subyekti də elmi idraki situasiyada “bilik istehsalı”nın aləti kimi qəbul etmək olar [Fuller, 2021, c.78].

Təbii ki, burada söhbət dərkedən subyektlə dərketmədə istifadə olunan vasitələr (və ya müxtəlif təbiətli texnologiyalar) arasında bərabərlik işarəsi qoymaqdan getmir. Sosial-tarixi epistemologiya çərçivəsində bu, biliyin alınmasının sosial-mədəni kontekstinin bütövlükdə elmi fəaliyyətin fundamentinə aid olmasını əks etdirir. Konkret ifadə etsək, S.Fullerə görə, hər bir tarixi mərhələdə və elmin bütün sahələrində bilik koqnitiv aspektlə sosial-mədəni aspektin vəhdəti şəraitində meydana gəlir.

Avin Şahar elmi tədqiqat üçün sosial epistemoloji yanaşmanın daha adekvat olduğunu vurğulamaqla yanaşı, informasiyanın bütövlükdə tədqiqatların istiqamət və məzmununa, həm də biliyin formalaşmasına ciddi təsir etdiyini əsaslandırır

[Avin, 2019, s.629-630]. Bu yanaşmadan da aydın olur ki, müasir mərhələdə interdissiplinar biliyin məzmunu, strukturu və təşkilinə informasiyanın əldə olunmasının ciddi təsirləri vardır.

A.Goldman 2019-cu ildə Stenford Universitetinin Fəlsəfə Ensiklopediyası üçün yazdığı məqalədə sosial epistemologiyanı yaradıcı adamın digər yaradıcı insanlarla qarşılıqlı ünsiyyətdə həqiqətə ən yaxşı üsulla çatmağın təmin edildiyi birgə fəaliyyət sahəsi (burada o, hətta "müəssisə" terminini işlədir) kimi təqdim edir. Bu, elmi həqiqətin qrupvari və daha geniş mənada kollektiv əldə edilməsi anlamına gəlir ki, onun üçün elm-sosial mühit sıx əlaqəsi bir zərurətdir. Bununla A.Goldman epistemologiyanın "genişləndiyi"ni düşünür və hesab edir ki, həmin proses sosial faktorların bütövlükdə biliyin əldə edilməsində (və ya formalaşmasında) ciddi rol oynadığını göstərir [Goldman, 2019].

Bu kontekstdə İ.T.Kasavinin də problemə yanaşması maraqlıdır. Rusiyalı filosof vurğulayır ki, indiki mərhələdə elmi yaradıcılıq tədqiqatçının şəxsiyyətinin unikallığı ilə onun biliklərinin "sosial etirafı" sahəsində kəsişmədə öz təsdiqini tapır [Kasavin, 2022, s.22]. Bu səbəbdən, fənlərarası bilik də daxil olmaqla biliyin bütün növlərinə avtonom məfhum kimi baxmaq" artıq adekvat elmi yanaşma sayılmır. Bilik "elmi legitimlik" və "sosial səmərə (effekt) kontekstində" qiymətləndirilir [Kasavin, 2022, s.27-28].

Rəqəmsal mədəniyyət mühitində isə biliyin formalaşmasının koqnitiv və sosial aspektlərinin qarşılıqlı əlaqələri yeni məzmun çalarları kəsb edir. İ.T.Kasavin bunu elmi yaradıcılığın (kreativliyin) təbiəti və reallaşma mexanizminin yeniləşməsi ilə izah edir. Bu bağlılıqda o yazır ki, müasir mərhələ "kommunikasiya və hərəkətliliyin xüsusi çevikliyi ilə fərqlənir". Buna görə, bilik yaradıcılığın nəticəsi kimi avtonom deyil, "elmi legitimlik və sosial səmərə kontekstində" baxıla bilər [Kasavin, 2022, s.25-27].

Belə yanaşmanın kökündə kommunikasiya növünün faktiki olaraq biliyin formalaşması mexanizmi ilə yanaşı, onun məzmun və strukturuna da təsir etdiyi tezisi dayanır. Nəticədə bir sıra faktorlar önə plana çıxır.

Birincisi, müasir rəqəmsal kültür şəraitində kommunikasiyanın hərəkətliliyi, sürəti və heterogenliyi avtomatik olaraq elmlərarası əlaqələrə xüsusi ritm və məzmun verir. O cümlədən, fənlərarası (interdissiplinar) münasibətlər daha da aktuallaşır və genişlənir.

İkincisi, bu əsasda biliyin formalaşması, yeni biliyin əmələ gəlməsi və onun cəmiyyətə tətbiqinin mümkün nəticələri və digər faktorlar yeni məzmun alır. Onların fəlsəfi-elmi refleksiyası bu təməldə daha da aktuallaşır.

Üçüncüsü, vurğulanan kontekstdə alınan biliyin legitimliyi xüsusi aktuallıq alır. Yəni biliyin legitimlik kriteriyalarının müəyyən edilməsi trivial məsələ deyil. Burada şəxsi yaradıcılıq, elmi rasionallıq və sosial mühitin münasibətləri məsələsi rol oynayır. Həmin bağlılıqda isə elmi ictimaiyyətin elmi biliyin həqiqiliyinin müəyyən edilməsindəki roluna yenidən baxmaq lazım gəlir. Bu proses özlüyündə

mürəkkəb və ziddiyyətlidir. Hazırda bu məsələdə fərqli mövqelər özünü göstərir. Deyək ki, elmi biliyin həqiqiliyinin müəyyən edilməsində ekspertizaların rolu məsələsi aktual araşdırılır. Və yaxud başqa yanaşmalarda artıq "elmi həqiqət deyil" "posthəqiqət"dən danışmağın daha doğru olduğu vurğulanır. Məqalədə baxılan məsələ "posthəqiqət" anlayışı kontekstində iki məqamda maraqlıdır. Onlardan biri, ümumiyyətlə, "posthəqiqət" anlayışının fəlsəfi-nəzəri dərki ilə əlaqəlidir, digəri isə müasir elmi rasionallıq çərçivəsində "posthəqiqət" və "elmi həqiqət"in müqayisəli təhlili ilə bağlıdır. Bu aspektlər üzərində ayrıca dayanaq.

## 2. Müasir elm və "posthəqiqət": yeni qnoseoloji paradoks?

"Posthəqiqət" termini bütövlükdə son illər dünya fəlsəfəsində bilik-həqiqət münasibətlərinə yenidən baxılması kontekstində fəlsəfi aktuallıq kəsb edir. Özlüyündə "posthəqiqət" termininin elmi, fəlsəfi, bədii, media, sosial, siyasi, idarəetmə, ictimai rəy kimi aspektlərdə də əhəmiyyəti mövcuddur. Terminin izahında həmin istiqamətləri ayrıca araşdırır və vurğulayırlar. Burada bizi "posthəqiqət" termin olaraq yalnız müasir elm və bilikdə "həqiqət" anlayışının fəlsəfi dərk edilməsi özəlliyi çərçivəsində maraqlandırır. "Posthəqiqət" nədir?

Maraqlıdır ki, bu termin epistemologiyaya sosial-siyasi həyatdan keçmişdir. Mənbələrə görə, onu ilk dəfə amerikan dramaturq 1992-ci ildə Vyetnam müharibəsi, Uotorgeyt hay-küyü və Körfəz böhranı ilə bağlı Stiv Teşiç işlətmişdir. S.Teşiç "posthəqiqət dünyası" (post-truth world) ifadəsini işlətmişdir. Onun yazdığına görə, həmin dövrdə Amerika toplumu seçim etməli idi – ya doğru olana (həqiqətə), ya da özsevərliyə (ləyaqətə, öz marağına) üstünlük verməli idi .

S.Teşiç yazır ki, azad xalq kimi amerikalılar azad surətdə belə qərara gəldi ki, "arzu edirik ki, özünəməxsus posthəqiqət dünyasında yaşayaq" [Tesich, 1992, s.13]. Belə bir mövqeni filosoflar ümumi halda posthəqiqətin ictimai rəyin formalaşmasında idraki fokusun həqiqət və "obyektiv" faktlardan "subyektiv" emosiya və inamlara dəyişməsi kimi qiymətləndirirlər [bax: məs., Morozov, 2021, s.287].

Bu bağlılıqda araşdırmaçılar J.Bodriyarın Körfəz savaşı ilə bağlı 1991-ci ildə işlətdiyi bir ifadəni "reallığın süni yaradılması" və ya "hiperreallığın nəzəriyyələşməsi" kimi izah edirlər [Pavlov, 2021, s.91; Morozov, 2021, s.288; Taysina, 2022, s.117-118].

"Posthəqiqət" anlayışının bu cür sosial-siyasi anlamı fonunda filosoflar "həqiqət", "doğru", "postdoğru" və s. kimi terminlərin fəlsəfi-epistemoloji təhlilinə baş vururlar. Burada çox fərqli mövqelər özünü göstərir. İlk olaraq epistemoloji aspektdə "elmi həqiqət" və "postdoğru" və ya "posthəqiqət" anlayışlarının qnoseoloji müqayisəsi aktual hesab edilir. Məsələ ondan ibarətdir ki, filosoflar "posthəqiqət"i adətən fəlsəfi aspektdə elmi həqiqətə nisbətdə mənfi mənada işlətməyə meyillidirlər. Daha konkret desək, onlar posthəqiqəti və postdoğrunu əsl elmi biliyin müəyyən edilməsinə elə də uyğun saymırlar. Lakin bir sıra

araşdırmaçılar burada müsbət məqamı da görməyə üstünlük verirlər [bax: məs., Morozov, 2019, s.93-94].

Qeyd edək ki, Oksford Lüğəti 2015-ci ildə "postdoğru" (və ya "posthəqiqət") terminini ilin sözü elan edəndən sonra onun tədqiqinə fəlsəfi-elmi maraq daha da artmışdır. İndi bu termini hətta mistik, superpsixoloji, irreal və s. kimi məna çalarları kontekstində də araşdırırlar. O sırada filosofların "hiperinam" və ya "hiperehkam" (hyperstition) termini ilə bu anlayışı müqayisə etmələri ayrıca bir özəllikdir. "Hyperstition" mədəniyyət kontekstində psixoloji olaraq uğurlu ideyaları təsvir etmək üçün işlədilir. Dövriyyəyə kiberkültürü araşdıran Cybernetic Culture Research Unit (CCRU) akademiyasının əməkdaşları tərəfindən daxil edilmişdir. "Hyperstition" postmodernist kültürün apokaliptik aspektdə effektlərini və mexanizmini eyni zamanda təsvir edir. "Posthəqiqət" anlayışı da məhz bu bağlılıqda dərk edilməyə çalışılır [Karstens & Land, 2019, s.255-256; Morozov, 2021, s.287].

Ancaq bu, həmin anlayışın dərkinə yanaşmalardan biridir və əsasən psixoloji çalara malikdir. Daha çox fəlsəfi-epistemoloji xarakterə malik anlamlar da bizim baxdığımız problem aspektində maraqlıdır. Burada da müxtəlif aspekt və kontekstlərdə yanaşmalar özünü göstərir. Ümumi halda filosoflar "posthəqiqət" (və ya "postdoğru") mərhələsinin başlıca fərqini "reallığın özünün mövcudluğuna təhlükə"nin yaranması ilə əlaqələndirirlər [Makintayr, 2018, s. 10]. Bunu bütövlükdə reallığın yox olması kimi, yəni "reallığı bilmənin ifrat halı" olaraq deyil, yeni sosial reallığın meydana gəlməsi kimi anlamaq lazımdır [Makintayr, 2018, s.118]. Epistemoloji müstəvidə isə bu qənaətin təməlində müasir elmdə "elmi fakt" anlayışının yeni məzmun çalarları almasının dayandığı vurğulanır [bax: məs., Taysina, 2022, s.118-119].

Deməli, "posthəqiqət" anlayışı müasir elm və elmlərarası əlaqələr üçün fundamental xarakterli koqnitiv və sosial fenomenlərin yeni anlamları ilə sıx əlaqəlidir. Bu səviyyədə də "postdoğru" anlayışının fəlsəfi dərkinə fərqli aspektlərdə yanaşırlar. Onları iki qrupa bölmək olar. Birincisi, "posthəqiqət" və ya "postdoğru" ilə klassik anlamda "elmi həqiqət" anlayışının müqayisəsi, ikincisi, "posthəqiqət"in "intellektual fəzilət", "müdriklik", "kosmizasiya" və s. kimi anlayışlara nisbətən "elmiliyi". Hər iki aspekt müasir mərhələdə veritizmlə sıx bağlılıqda araşdırılır. Bu problem Dunkan Pritçartın "Veritizmin müdafiəsinə" adlı məqaləsindən sonra daha çox epistemoloji tədqiq olunmağa başlamışdır. D.Pritçart yazır ki, əvvəllər elmi həqiqət "yeganə epistemoloji fəzilət" kimi qəbul edilirdisə, indi vəziyyət tamamilə dəyişmişdir. Belə ki, "bir sıra filosoflar epistemik dəyərlərin plüralizminə tərəfdardır". Bu halda həqiqət bir-birinə reduksiya oluna bilməyən bir neçə "epistemik fəzilət" kimi dərk edilir [Pritçart, 2021, s.22].

D.Pritçartın mövqeyi ilə razılaşmayanlar vardır, lakin onlar da "epistemik plüralizmi" inkar etmirlər və əslində bu "plüralizm"in necə dərk edilməsində fikir ayrılığı mövcuddur. Məsələn, Rayan Şeyn həqiqət yerinə "müdriklik" anlayışından istifadə etməyi daha adekvat hesab edir. Onun fikrincə, müdriklik həqiqətdən "daha

fundamental"dır [Rayan, 2021, s.60].

Epistemoloji aspektdə "posthəqiqət" anlayışına daha bir yanaşma özəlliyi onun sosial mühitdən qaynaqlanması ilə bağlıdır. Filosoflar bu məqamı ayrıca vurğulayırlar. Qeyd edirlər ki, "posthəqiqət"in siyasətdə yaratdığı epistemik durum onun elmdə yaratdığına analoji ola bilər. S.Fullerin də vurğuladığı kimi, elmi biliyin həqiqiliyini müəyyən etmək faktiki olaraq bir-biri ilə kriteriya baxımından ölçülə bilinməyən narrativlərin şəbəkəsinə baxmağı tələb edir. Belə ki, artıq elmdə "konsensus qeyri-təbii vəziyyətdir" [Fuller, 2021, s.113]. Deməli, S.Fuller üçün "posthəqiqət" anlayışı həm hansı faktların həqiqi olması məsələsi ilə, həm də "faktların həqiqiliyinin necə müəyyən edilməsi ilə əlaqəlidir" [Maslanov, 2023, s.75].

Belə çıxır ki, müasir elmdə biliyin həqiqiliyinin qiymətləndirilməsi məsələsi birmənalı anlaşılmır və fərqli kriteriylar, kontekstlər irəli sürülür. O cümlədən, hətta siyasi mühitdən alınmış "posthəqiqət" və ya "postdoğru" anlayışının epistemoloji dərkinə baş vurulur. Belə bir vəziyyət elmi biliyin fəlsəfi-epistemoloji refleksiyasında qnoseoloji paradoksun yaranması təəssüratı yarada bilər. Lakin məsələyə interdissiplinarlıq prizmasında baxanda mənzərə xeyli fərqli görünür.

### 3. İnterdisiplinar biliyin formalaşması: iki aspektin vəhdəti kimi

Konkret olaraq, vurğulanan elmi məsələyə sosial-tarixi epistemologiya prizmasında yanaşanda qnoseoloji paradoksun deyil, yeni idraki situasiyanın meydana gəldiyini görürük. Burada elmi biliyin formalaşmasında iki aspektin – koqnitiv və sosial-mədəni mühit aspektlərinin, qarşılıqlı əlaqəsindən danışmaq olar. Həm də sırf koqnitivliklə sosiallıq fənlərarası yanaşmada "yan-yana dayanan" faktorlar kimi deyil, "iç-içə" olan və bu keyfiyyətdə bütövlükdə elmi dərketməyə orqanik daxil olan bir-birindən ayrılmaz atributlar kimi anlaşılmalıdır. Bu vəziyyəti şərtləndirən epistemoloji mexanizmlər qeyri-xəttilik, intersubyektivlik və yeni biliyin faktiki olaraq iyerarxik struktura malik olması ilə bağlıdır. Bu prinsiplər fənlərarası metodologiyanın əsas mexanizmləri sırasına daxildir.

Burada fənlərarası (interdissiplinar) biliyin "iyerarxik strukturu" ifadəsi çoxçalarlı məzmuna malik anlayış kimi qəbul edilir. Biz bu məqalədə onun yalnız bir aspekti – interdissiplinar biliyin koqnitiv (sırf idraki) və sosial mühit kontekstinin qarşılıqlı əlaqəsi, üzərində dayanacağıq.

Belə qəbul edirik ki, müəyyən mənada (qnoseoloji olaraq) müasir fənlərarası bilik iki pillənin – sırf şüuri və sosial səviyyələrin, vəhdəti nəticəsində formalaşır. Əslində, bu cür yanaşma da mürəkkəb və çoxşaxəli izah tələb edir. Biz onu da bir qədər məhdudlaşdıraraq biliyin yaranmasına "elmi həqiqət" və onun ekspert qiymətləndirilməsi bağlılığında nəzər salacağıq. Bu yanaşma idraki və sosial aspektlərin əlaqəsi fonunda aparılır.

İnterdissiplinar biliyin "həqiqiliyi" bütövlükdə müasir elmin postqeyri-klassik rasionallığının şərtləri daxilində qiymətləndirilir. Bu barədə kifayət qədər fəlsəfi və

elmi-metodoloji araşdırmalar mövcuddur [bax: məs., Arşinov və b., 2019; Lebedev, 2020, s.13-18; Styopin, 2021]. Onlar fəlsəfi və elmi ədəbiyyatda geniş təqdim edilmişdir və üzərində geniş dayanmayaq. Bizim məqalədə qarşıya qoyduğumuz məqsəd baxımından onu deyək ki, aparılan fəlsəfi araşdırmalarda interdissiplinar biliyin elmi həqiqiliyi elmin norma və ideallarının postqeyri-klassik anlamı çərçivəsində daha adekvat dərk edilə biləcəyinin vurğulanması ilə əlaqələndirilir. Bu zaman biliyin yaranması ilə yanaşı yeni biliyin formalaşması məsələsi bir-biri ilə sıx bağlılıqda nəzərdən keçirilir. Postqeyri-klassik rasionallığın ideal və normaları, prinsipləri öncəki rasionallıq formalarından bir sıra məqam üzrə fərqlənir. Onların sırasında fənlərarası qnoseoloji sahədə biliyin mürəkkəb struktur-funksional vahid kimi emercent (öz-özünə, gözlənilmədən, öncədən görülmədən) meydana gəlməsi xüsusi yer tutur. Bu əsasda filosoflar fənlərarası biliyin iyerarxikliyi, plüralizmi və qeyri-xəttiliyi nəticəsini çıxarırlar.

Belə yanaşma çərçivəsində elmi həqiqət anlayışının anlamı da ciddi surətdə yeniləşir. Elmi həqiqət heterogen məfhum kimi qəbul edilir. Onun məzmununda müxtəlif çalarlar vahid məntiq çərçivəsində sistem halında sintez olur. Bunlar həm biliyin formalaşması, həm yeniləşməsi və həm də onun proqnostik funksiyasını fərqli mövqedən anlamağa imkan yaradır.

Deməli, postqeyri-klassik rasionallıq faktiki olaraq biliyin formalaşması və mövcud bilikdən yeni biliyin alınması qaydasını dəyişir ki, nəticədə interdissiplinar yanaşma çərçivəsində elmi bilik anlamı da substansional və funksional aspektlərdə yeniləşir. Bu o deməkdir ki, interdissiplinarlıq sırf idraki aspektdə (koqnitiv aspekt) biliyin meydana gəlməsi mexanizminə və eyni zamanda, onun həqiqiliyinin anlamına fərqli məzmun, məna və funksional çalarlar verir.

Lakin məsələ bununla məhdudlaşmır. V.S.Styopin bu özəlliyi müasir fənlərarası tədqiqatların əsasən mürəkkəb və “insan ölçülü” sistemləri araşdırması ilə əlaqələndirir. Əgər klassik rasionallıqda elmi tədqiqatın başlıca məqsədi “dünyanın həqiqi mənzərəsini almaq” idisə [Nikifirov, 2019, s.23], postqeyri-klassik rasionallıq tamamilə başqa mənzərəni ortaya qoyur. Bu cür idraki “keçid” və ya “qnoseoloji sürüşmə” müasir fənlərarası dərketmədə sosial-mədəni mühitin fundamental surətdə nəzərə alınmasını tələb edir. Bütövlükdə elmi idrakı koqnitiv+sosial mühit vəhdətində araşdırmağı tələb edir. Bu proses də kifayət qədər mürəkkəbdir və burada onun yalnız bir aspekti üzərində dayana bilərik. Biz, fənlərarası biliyin bütövlükdə müasir dövrün “qeyri-müəyyənliyi” fonunda anlamını nəzərdə tuturuq. Həmin anlam məhz koqnitiv aspektlə sosial-mədəni aspektin (nəzəri və praktiki-tətbiqi) qarşılıqlı əlaqəsi kontekstində aktuallaşır.

Hələ keçən əsrin 80-ci illərinin ikinci yarısında U.Bek yazırdı ki, son yüz ildə iqtisadi, siyasi və iqtisadi həyatda əhəmiyyətli dəyişikliklər baş vermişdir ki, nəticədə müasir toplumları “qeyri-müəyyənliklər” və “risklər” cəmiyyəti adlandırmaq olar. Bu, biliyin sosial və siyasi əhəmiyyətini artırır, “biliyin alınması və yayılmasında kommunikativ sistemlər üzərində hakimliyi artırır” [Bek, 2000, s.56].

Filosofların son illərdə apardıqları araşdırmalarda bu özəlliyin daha da gücləndiyi göstərilir. Maraqlıdır ki, bu zaman qeyri-müəyyənliklə riskin qarşılıqlı əlaqəsinin daha da sıxlaşdığı müxtəlif fikirlərdə ifadə edilir. Məsələyə idrakdakı qeyri-müəyyənliklə sosial praktikadakı qeyri-müəyyənliyin qarşılıqlı əlaqəsinin yaratdığı "idraki risk" prizmasında nəzər salanlar da vardır [bax: məs., Gerasimova, 2019, s.8-20].

Bu mövqeni daha da ümumiləşdirərək belə nəticə çıxarırlar ki, "elm yeni bilik istehsalı üzrə yüksək texnoloji sahəyə çevrilmişdir ki, onun nəticələri ictimai həyatın digər sahələrində istifadə edilir" [Maslanov, 2021, s.114]. Həmin prosesin fəlsəfi anlamında elmi biliyin sosial həyatın müxtəlif sahələrində kütləvi istifadəsi ilə elmin innovasiyalılığının sintezi xüsusi yer tutur.

Beləliklə, interdissiplinar biliyin semantik və qnoseoloji strukturunda biliyin əldə olunmasının özəllikləri ilə yanaşı, onun son həddə sosial-praktiki tətbiqi ayrıca yer tutur. Bu da fənlərarası biliyin funksionallığında sosial-mədəni aspektin elmi fəaliyyətin immanent fenomeni kimi yer aldığını göstərir. Fənlərarası biliyin bu cür anlamı onun həqiqiliyinin təsdiqində ekspertizanın çox əhəmiyyətli rol oynadığını deməyə əsas verir. Həmçinin müasir fənlərarası biliyin ekspertizasında qeyri-müəyyənliklər və dəyər münaqişələri ön sıraya çıxır. R.Grundmann yazır ki, bu qeyri-müəyyənliklər və münaqişələr elmi idrakın "rutin proseslərindən kənara çıxırlar". Onlar faktiki olaraq "ictimai debatlara cəlb olunurlar" [Grundmann, 2018, s.378-380; Maslanov, 2021, s.114-115].

Belə çıxır ki, indiki mərhələdə fənlərarası (interdissiplinar) biliyin "elmiliyi" və "həqiqiliyi"nin qiymətləndirilməsində postqeyri-klassik rasionallığın koqnitiv özəllikləri ilə yanaşı, ekspertiza da zəruri şərt kimi iştirak edir. Bu da bütövlükdə interdissiplinar biliyin məzmun, mahiyyət və tətbiqində yeni çalarların mövcudluğunu göstərir. Vurğulanan xüsusiyyət özlüyündə müasir elmi biliyin fərqliliklərindən birini ifadə edir. Bu tezisdən müəyyən fəlsəfi nəticələr çıxarmaq olar.

**Nəticə**

Müasir mərhələdə interdissiplinarlıq elmi fəaliyyətin təşkili, reallaşma mexanizmləri və konkret biliklərin əldə olunmasına özəl məzmun verməkdədir. Bu proses mahiyyətcə mürəkkəbdir və çoxlu sayda faktoru ehtiva edir.

Onlar koqnitiv və sosial xarakterlidir. Buna görədir ki, klassik və qeyri-klassik rasionallıqdan fərqli olaraq postqeyri-klassik rasionallıqda elmi biliyin qiymətləndirilməsində sosial parametr bütövlükdə idrak prosesinin atributu kimi çıxış edir.

Artıq biliyin adekvat elmi anlamını ancaq rasionallığın sırf koqnitiv aspekti ilə məhdudlaşdırmaq qaneedici sayılmır. Bu zaman biliyin qiymətləndirilməsi "həqiqət" anlayışı fonunda aparılsa da, onun anlamı daha geniş və xeyli dərəcədə qeyri-müəyyən təsəvvür edilir. O sırada hazırda filosoflar elmi bilik-posthəqiqət münasibətlərinin təhlilinə ciddi fikir verirlər.

Filosoflara görə, interdissiplinar biliyin formalaşması və yeni biliyin əldə

edilməsi struktur və funksional dəyişikliklərə gətirib çıxarır. Burada biliyin plüralizmi xüsusi yer tutur.

Bütün bunlara görə, yekun olaraq belə qənaətə gəlirik ki, müasir mərhələdə "posthəqiqət" anlayışı qnoseoloji paradoksallığı deyil, interdissiplinar bilik nümunəsində "elmi həqiqət"in anlamının yeni mərhələyə keçidini ifadə edir. Elmi həqiqətin klassik anlamına nisbətən isə onu şərti "neoklassik elmi həqiqət" adlandırmaq olar.

## Ədəbiyyat siyahısı:

1. Платон. Собран. Соч. в 4-х томах. Том 3-й / Пер. с древнегреч.; общ. ред. А.Ф. Лосева и др. – М.: – Мысль, – 1990-1994. ISBN: 5-244-00385-2.
2. Fuller, S. Making 'science as a public good' meaningful: response to stehr, turner and sassower // Epistemology & Philosophy of Science. – 2020, vol. 57, – №. 4, – pp. 70–73. DOI: https://doi.org/10.5840/eps202057458.
3. Касавин, И.Т. Научное творчество как социальный феномен // Эпистемология и философия науки – 2022, т. 59, – № 3, – с. 19–29. УДК 167.7. DOI: https://doi.org/10.5840/eps202259336.
4. Avin, Sh., "Centralized Funding and Epistemic Exploration": [Electronic resource] // The British Journal for the Philosophy of Science, - 2019, - № 70(3), - pp. 629–656. Müraciət tarixi 26.11.2023. DOI:10.1093/bjps/axx059
5. Goldman, A. Social epistemology: [Electronic resource] // - Stanford Encyclopedia of Philosophy, - 2019. URL: http://plato.stanford.edu/entries/epistemology-social/. Müraciət tarixi 26.11.2023.
6. Fuller, S. The prophetic bacon: response to Garber // Epistemology & Philosophy of Science 2021, vol.58, no.3, pp.78-86. DOİ: https://doi.org/10.5840/eps202158345
7. Tesich, S. A. Government of Lies // The Nation. — 1992. — Vol. 254, № 1. — p.12-14.
8. Морозов, А. В. Как «постистинный мир» наконец стал гиперверием : рецензия на книгу Стива Фуллера // Философия. Журнал Высшей школы экономики. –2021, – т .5, – № 3, – с.287–297.
9. Тайсина, Э.А. Пост-истина в политическом и философском смыслах. Рецензия на книгу Ли МакИнтайра «Пост-истина» издательство Массачусетского технологического института, 2018 г. // Вестник Самарского Государственного Технического Университета. Серия «Философия». – 2022, – т. 4, – № 2, – с.117–123. DOI: https://doi.org/10.17673/vsgtu-phil.2022.2.14.
10. Павлов, А. В. Постпостмодернизм: как социальная и культурная теории объясняют наше время. – М.: Изд. дом «Дело» РАНХиГ, – 2021, – с.560 с. İSBN: 978-5-85006-254-5.
11. Морозов, А.В. Ответ на вопрос: что такое постправда? Перспектива проблематологии // Горизонты гуманитарного знания, – 2019, – № 3, – s.93-

105. DOI: 10.17805/ggz.2019.3.8.

12. Карстенс, Д., Ланд, Н. Введение в гиперверие. Интервью // «Логос». – 2019, –том 29, – № 5, – с.255-264.

13. McIntair, L. Post-truth // L. McIntair. L. Post-truth. The MIT Press Essential Knowledge Series, - 2018, - 240 pp.

14. Pritchard, D. In defence of veritism // Epistemology & Philosophy of Science. – 2021, – vol. 58, – №4, – pp.22–37. DOI: https://doi.org/10.5840/eps202158456

15. Şyan, R. Wisdom, not veritism // Epistemology & Philosophy of Science, 2021, vol.58, № 4, pp.60–67. DOI: https://doi.org/10.5840/eps202158460

16. Фуллер, С.В. Постправда: Знание как борьба за власть / пер. с англ. Д. Кралечкина; под науч. ред. А. Смирнова. – М.: Изд. дом Высшей школы экономики, – 2021, – 368 с.

17. Масланов, Е.В. Постправда и несоизмеримость: наука и политика в эпоху постправды // Вестник Томского государственного университета. – 2023, – № 486, – с.74–82. DOI: 10.17223/15617793/486/8.

18. Степин, В.С. Теоретическое знание: структура, историческая эволюция. Минск: Беларуская навука // В.С.Степин. Теоретическое знание: структура, историческая эволюция. Минск: Беларуская навука – 2021, – 539 с.

19. Лебедев, С.А. Постнеклассическая эпистемология: сущность и основные принципы // Журнал философских исследований. – 2020, т.6, – С. 13-18. DOİ: https://doi.org/10.12737/issn.2500-0519.

20. Аршинов, В.И. и др. Социотехнический ландшафт цифровой реальности: философско-методологический концепт, онтологические матрицы, экспертно-эмпирическая верификация // Коллективная монография / В.И.Аршинов, М.В.Артеменко, И.А.Асеева, В.Г.Буданов, О.А.Гримов, Е.Г.Каменский, А.В.Маякова, В.В.Чеклецов / Отв. ред. И.А. Асеева, В.Г. Буданов. – Курск: ЗАО «Университетская книга», – 2019, – 225 с. ISBN 978-5-907270-64.

21. Никифоров, А.Л. Трансформация науки в XX в.: от поиска истины к совершенствованию техники // Эпистемология и философия науки. – 2019, – т. 56, – № 3, – с.20–29. УДК 167.7. DOI: 10.5840/eps201956342.

22. Никифоров, А.Л. Социальная позиция эксперта как новый элемент науки // Эпистемология и философия науки. – 2021, – т. 58, – № 2, – с.113–131. УДК 167.7. DOI: https://doi.org/10.5840/eps202158232.

23. Бек, У. Общество риска. На пути к другому модерну / Пер. В. Седельника. М.: Прогресс-Традиция, – 2000, – 380 с. ISBN: 5-89826-059-5.

24. Герасимова И.А. Неопределенность в познании и в социальных практиках // Эпистемология и философия науки. – 2019, – т.56,, – № 4,, – с.8–20. УДК 140.8. DOI: 10.5840/eps201956462.

25. Масланов, Е.В. Социальная позиция эксперта как новый элемент науки // Эпистемология и философия науки. – 2021, – т.58, – № 2, – с.113–131. УДК 167.7. DOI: https://doi.org/10.5840/eps202158232.

26. Grundmann, R. The Rightful Place of Expertise // "Social Epistemology". A Journal of Knowledge, Culture and Policy. – 2018, – vol. 32, – iss.6, – pp.372–386. DOI:10.1080/02691728.2018.1546347.

## Роль социокультурной среды в формировании междисциплинарного знания: эпистемологический анализ

**Резюме:** На современном этапе большое значение придается философскому осмыслению научного знания в рамках междисциплинарного подхода. В том числе, актуальным является формирование междисциплинарных знаний и приобретение новых знаний в различных аспектах философско-научного понимания. В статье исследуются место и роль социокультурной среды в формировании междисциплинарных знаний.

Здесь основной целью является рассмотрение практико-прикладного аспекта социального контекста наряду с когнитивными факторами формирования знаний на современном этапе.

В статье показано, что «постправда», «неопределенность», «гиперреальность» и др. используются в современных подходах к формированию междисциплинарного знания. На этой основе уточняются структурные и функциональные особенности междисциплинарного знания.

В статье рассматривается место и роль понятия научной рациональности в философском осмыслении междисциплинарного знания. В этой связи анализируется ряд особенностей постнеклассической рациональности. Здесь подчеркивается, что одним из главных моментов является то, что в постнеклассической рациональности когнитивный и социокультурный аспекты выражаются в тесном взаимодействии.

В соответствии с <u>целью научного исследования</u> проблема рассматривается в рамках <u>междисциплинарной методологии</u> через призму современной социально-исторической эпистемологии.

В качестве <u>методологических принципов</u> приняты методологические принципы нелинейности, интерсубъектности и синергетического синтеза.

В качестве <u>метода</u> были выбраны сравнительный анализ и динамическая интеграция.

<u>Научная новизна</u> заключается в том, что понятие «постистина» не является эпистемологической парадоксальностью, а выражает переход к новому этапу в философском понимании понятия «научной истины». В этом смысле понятию «постправды» можно условно охарактеризовать как «неоклассическая научная истина».

**Ключевые слова:** постнеклассическая рациональность, междисциплинарное знание, истина, добродетель, неопределенность, научная легитимность, гиперверие, постистина, гиперреальность

# The role of the sociocultural environment in the formation of interdisciplinary knowledge: epistemological analysis

**Summary:** At the present stage, great importance is attached to the philosophical understanding of scientific knowledge within the framework of an interdisciplinary approach. In particular, the formation of interdisciplinary knowledge and the acquisition of new knowledge in various aspects of philosophical and scientific understanding is relevant. The article examines the place and role of the sociocultural environment in the formation of interdisciplinary knowledge.

Here the main goal is to consider the practical and applied aspect of the social context along with the cognitive factors of knowledge formation at the present stage.

The article shows that “post-truth”, “uncertainty”, “hyperreality”, etc. are used in modern approaches to the formation of interdisciplinary knowledge. On this basis, the structural and functional features of interdisciplinary knowledge are clarified.

The article examines the place and role of the concept of scientific rationality in the philosophical understanding of interdisciplinary knowledge. In this regard, a number of features of post-non-classical rationality are analyzed. It is emphasized here that one of the main points is that in post-non-classical rationality the cognitive and sociocultural aspects are expressed in close interaction.

In accordance with the purpose of scientific research, the problem is considered within the framework of interdisciplinary methodology through the prism of modern socio-historical epistemology.

The methodological principles of nonlinearity, intersubjectivity and synergetic synthesis are adopted as methodological principles.

The method chosen was comparative analysis and dynamic integration.

The scientific novelty lies in the fact that the concept of “post-truth” is not an epistemological paradox, but expresses a transition to a new stage in the philosophical understanding of the concept of “scientific truth”. In this sense, the concept of “post-truth” can be conditionally characterized as “neoclassical scientific truth.”

**Key words:** post-non-classical rationality, interdisciplinary knowledge, truth, virtue, uncertainty, scientific legitimacy, hyperstition, post-truth, hyperreality.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 14.11.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Tamilla Əhmədova**